TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Bakı şəhəri** "06" 02 2024-cü il

# ƏMR № 3-29-61/3-2-25F/2024

**Azərbaycan Tibb Universitetində əsas baza ali tibb təhsili və bakalavriat səviyyəsində tədris olunan proqramlar (ixtisaslalar) üzrə beynəlxalq səviyyədə akkreditasiya qiymətləndirməsi nəticələrinin dövlət akkreditasiyası üçün nəzərə alınması barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın 4.7-ci bəndinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"nin 4.9.5-ci yarımbəndini rəhbər tutaraq,

**əmr edirəm:**

1. Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Assosiasiyanın (ENQA) tam hüquqlu üzvü olan Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi (IAAR) tərəfindən Azərbaycan Tibb Universitetinin bakalavriat səviyyəsi üzrə "Əczaçılıq" ixtisası, əsas baza ali tibb təhsili üzrə "Stomatologiya" və "Müalicə işi" ixtisaslarının akkreditasiya qiymətləndirilməsi nəticələri dövlət akkreditasiyası üçün nəzərə alınsın.
2. Azərbaycan Tibb Universiteti tərəfindən beynəlxalq proqram akkreditasiyası üzrə Yekun Hesabatlarda qeyd olunan tövsiyələrin icrasına dair fəaliyyət planı çərçivəsində tərtib edilmiş hesabatlar hər il olmaqla Təhsildə Keyfiyyət Təminatı Agentliyinə təqdim edilsin.
3. İnformasiya və insan resursları şöbəsi bu əmrin surətinin Agentliyin müvafiq struktur bölmələrinə və Azərbaycan Tibb Universitetinə çatdırılmasını təmin etsin.
4. Əmrin icrasına nəzarət Keyfiyyət təminatı departamentinə (İlham Hümbətov) həvalə edilsin.

**Əsas:** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 23 yanvar 2024-cü il tarixli, AKŞQ-01 nömrəli Qərarı.

**İdarə Heyətinin sədri** **Tural Əhmədov**

ƏSLİ İLƏ DÜZDÜR

TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI AGENTLİYİ PUBLİK HÜQUQİ ŞƏXS
İNFORMASİYA VƏ İNSAN RESURSLARI ŞÖBƏSİ